## "AAC" MMC-NİN KEYFİYYƏT ÜZRƏ SİYASƏTİ

**Təsdiq edirəm;**
**"AAC" MMC-nin Direktoru**
**Zahid Şahbazov**
**"30" Sentyabr" 2023-cü il**

AAC" MMC müasir tikinti materiallarının istehsalını və satışını həyata keçirir. Şirkətin, özünün fəaliyyət proseslərində başlıca məqsədi aşağıdakılardır:

- İSO 9001:2015 Keyfiyyət İdarəetmə Sisteminin tətbiqində standartın bütün tələblərinin icra olunmasını və sənədləşdirilmiş məlumatların saxlanmasını təmin etmək;
- Keyfiyyət İdarəetmə Sisteminin tətbiqi üçün lazımi resursları müəyyən etmək və təmin etmək;
- Keyfiyyət İdarəetmə Sisteminin tələblərinin təşkilatın biznes proseslərinə inteqrə edilməsini təmin etmək;
- Keyfiyyət İdarəetmə Sistemi üzrə siyasətin və məqsədlərin şirkətin kontekstinə və strateji istiqamətinə uyğun olmasını təmin etmək;
- Keyfiyyəti İdarəetmə Sisteminin effektivliyini və səmərəliliyini daima artırmaqla, onu daha da təkmilləşdirmək;
- Məhsul və ya xidmətlərin uyğunluğuna, habelə müştəri məmnunluğunun artırılması imkanlarına təsir göstərə biləcək riskləri və potensial hadisələri müəyyən etmək və müvafiq tədbirlər görmək;
- Strateji və operativ marketinq təhlillərini aparmaqla, müştərilərin cari və gələcək tələblərini öncədən anlamaq, onların istəklərini vaxtında qarşılamaq;
- Müştərilərin məmnunluq dərəcəsini daim artırmaq.

Şirkətin başlıca strateji inkişaf istiqaməti, rəqabətə davamlı, dünya və Avropa Standartlarının tələblərinə cavab verən, yüksək keyfiyyətli məhsullarını bazara çıxartmaqdır.

Yuxarıda qeyd olunan başlıca məqsədlərin həyata keçirilməsini təmin etmək üçün, "AAC" MMC aşağıdakı prinsiplərə əməl ediləcəyini bəyan edir:

- Şirkətin fəaliyyətində Azərbaycan Respublikasının Qanunvericiliyinin tələblərini, müqavilələr üzrə üzərinə götürdüyü öhdəlikləri, eləcə də bütün digər maraqlı tərəflərin tələblərini vaxtında və layiqincə yerinə yetirmək;
- İstehsal olunan məhsulların və göstərilən xidmətlərin keyfiyyətini daim artırmaq;
- İşçi heyətin bilik, bacarıq və səriştəliliyini daim artırmaq;
- Keyfiyyəti İdarəetmə Sistemini daim təkmilləşdirmək;

"AAC" MMC –nin Rəhbər heyəti Keyfiyyət üzrə Siyasətin bütün işçi heyətin nəzərinə çatdırılması və bütün əməkdaşlar tərəfindən onun prinsiplərinə əməl edilməsinin təmin olunmasını öz üzərilərinə götürürlər.